Yubileyin mübarək, AZƏRBAYCAN POLİSİ!

MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

28 iyun 2018-ci il Cümə axşamı

№ 25 (3389)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ HƏRBİ PARAD KEÇİRİLİB

AZƏRBAYCAN PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV HƏRBİ PARADDA OLUB

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silahlar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşılayıblar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamlayıb.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının dövlət himnini ifa edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söyləyib.

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi olub.

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə iyunun 25-də imzaladığı sərəncamla 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim edib.

Sonda xatirə şəkilləri çəkdirilib.

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd "F-16" və 8 ədəd "F-5" tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirib.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı seçkilərdə əldə etdiyi inamlı qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və inkişafı naminə yeni uğurlar arzulayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul edilib.

Ölkəmizin rəhbəri iyunun 22-də Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajinin başçılığı ilə bankın Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

İyunun 23-də Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

İyunun 23-də Azərbaycan Prezidenti İlham Əliyev Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

❖❖❖❖❖

İyunun 24-də dövlətimizin başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

İyunun 24-də ölkəmizin rəhbəri Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.

❖❖❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 25-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi və bir qrupunun təltif edilməsi haqqında sərəncamlar imzalayıb.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul edib.

❖❖❖❖❖

İyunun 26-da Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarı və Türkiyənin müdafiə naziri Nurettin Caniklini qəbul edib.

❖❖❖❖❖

İyunun 26-da dövlətimizin başçısı İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli həmkarlar!

1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cumhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində asayişi mühafizə dəstələrinin yaradılması ilə təməli qoyulan polis orqanları bütün tarixi dövrlərdə zamanın sınaqlarından şərəflə çıxmış, Vətənə və xalqa xidmət missiyasını sədaqətlə yerinə yetirmiş, dəyərli ənənələr yaratmışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşıb mətinləşmiş, sıraları saflaşmış, dövlətin konstitusiya quruluşunun əsaslarının müdafiəsində xüsusilə fərqlənərək onun əsas dayaqlarından birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi fundamental islahatlar, xüsusi diqqət və qayğısı sayəsində maddi-texniki bazası getdikcə güclənən, modernləşən və peşəkarlığını daim artıran daxili işlər orqanları ona bəslənilən inam və etimadı bu gün də doğruldur. Cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsində qüvvə və bacarığını əsirgəmir. Sarsılmaz mübarizə əzmi ilə üzərinə düşən vəzifələrin icrasını layiqincə təmin edir, peşə bayramını və əlamətdar yubileyini xidməti fəaliyyətdə qazandığı böyük nailiyyətlərlə qarşılayır. Dövlət başçısının rəhbərliyi altında polisin digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə birgə səmərəli iş fəaliyyətinin nəticəsi olaraq Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır.

Şəxsi heyətimizin xidmətləri, fədakar əməyi möhtərəm Prezident, həmçinin xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilmişdir və müstəqillik illərində yüzlərlə əməkdaşın dövlət mükafatlarına layiq görülməsi bunun əyani təsdiqidir.

Əminəm ki, öz andına həmişə sadiq qalan, milli maraqları daim uca tutan daxili işlər orqanları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin inkişafı, vətəndaşlarımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərə, davamlı islahatlara, xalqımızın təhlükəsiz həyatının, asayişinin qorunması işinə bundan sonra da dəyərli töhfələr verəcəkdir.

Azərbaycan Polisinin yaranmasının 100 illik yubileyi münasibətilə bütün şəxsi heyəti, veteranlarımızı, torpaqlarımızın müdafiəsi uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, səadət, Vətənə və xalqa xidmət kimi şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.

Bayramınız mübarək!

Ramil Usubov,
Azərbaycan Respublikasının daxili işlər naziri,
general-polkovnik

100 il ərzində müxtəlif dönəmlərin çətinlikləri ilə üzləşsə də öz mətinliyini, vətəninə, andına sədaqətini qoruyub saxladı, Azərbaycan Polisi.

Xalqımız vətəndaş müharibəsi ilə üz-üzə qaldıqda da, erməni qəsbkarları torpaqlarımıza təcavüz edəndə də canı, qanı bahasına başa gəlsə də, öz borcunu layiqincə yerinə yetirdi və bu günümüzə şərəflə gəlib çıxdı.

YAŞAYAN, DÖYÜŞƏN ŞANLI TARİX

Gündəlik həyatımızda çətinə düşdükdə ilk olaraq, dadımıza yetişən də polislərimizdir. Bu gün müstəqil dövlətimizin hər bir vətəndaşının 100 yaşlı fədakar polisi ilə qürur duymağa haqqı vardır. Məhz həm də daxili işlər orqanlarının gərgin əməyinin nəticəsidir ki, əmin-amanlıq şəraitində yaşamaq xalqın özünə inamını, yaşayıb-yaratmaq şövqünü günü-gündən daha da artırıb.

Daxili işlər orqanlarında uzun illər xidmət edən, ömrünü-gününü bu çətin sahəyə həsr edənlər bilirlər ki, xidmət təqaüdə çıxdıqdan sonra da davam edir. Buna ehtiyac olur. Cinayətkarlığa qarşı peşəkar mübarizədə əldə etdikləri nəzəri və praktiki biliklərlə, illər boyu qazandıqları zəngin təcrübə ilə veteranlarımız daim yanımızdadırlar. Yaşlarının bu çağında əlləri işdən-gücdən soyumayan veteranlar polis və vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsində, ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası məqsədi ilə vaxtilə çalışdıqları ərazi polis orqanlarında və nizami hissələrdə gənc əməkdaşlara əməli köməklik göstərilməsində bilik və bacarıqlarını əsirgəmirlər. Cinayət faktlarının açılmasında, axtarışda olanların tapılmasında onların köməyi danılmazdır. Polis veteranları yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işləri aparır, gənc nəslin sağlam ruhda yetişmələri üçün böyük səy göstərirlər.

Ötən il ərzində veteranların köməyi ilə nə az nə çox, düz 4160 cinayətin açılması təmin edilib. Bu da işin hamısı deyil. Göstərilən dövr ərzində veteranlar 2784 dəfə respublikanın müxtəlif təhsil müəssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxış edib, tövsiyələrini bildiriblər.

Müstəqillik illərində xalqımızın ümummilli lideri tərəfindən həyata keçirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilən dövlətçilik strategiyasının veteranlarımız tərəfindən birmənalı olaraq dəstəklənməsi, onların ölkəmizin, daxili işlər orqanlarının ictimai həyatında inamla və fəal şəkildə iştirak etmələri, zəngin təcrübələrini gənclərlə bölüşmələri vətənpərvərliyin və dövlətçiliyə sadiqliyin bariz nümunəsidir.

Veteranlarımızın mənalı həyat yolu, zəngin təcrübəsinə nəzər saldıqda görünür ki, həqiqətən də ötən günlər-itən günlər deyilmiş. Mənalı həyatının qırx ilə yaxın dövrünü daxili işlər orqanlarında xidmətə həsr edərək şərəfli yol keçən, 90-nı haqlayan, istefada olan polis polkovniki Müseyib İlyasovun ömür yolu bir məktəbdir. 95 yaşını bu yaxınlarda qeyd etdiyimiz, müharibə və polis veteranı İsmayıl Qasımov mənalı ömrünün 30 ilə yaxın dövrünü daxili işlər orqanlarına həsr edib. Faşizm üzərində qələbənin sevincini yaşayan İsmayıl Qasımov torpaqlarımızın azad ediləcəyi günün də səadətini yaşayacağına inanır. Üç mühüm hüquq-mühafizə orqanında uzun illər yüksək vəzifələrdə şərəflə xidmət etmək hər kəsə nəsib olmur. III dərəcəli dövlət ədliyyə müşaviri, respublikanın əməkdar hüquqşünası Akif Rəfiyev bu məsul vəzifələrin öhdəsindən layiqincə gəlib. İstefada olan polis general-mayoru Kamil Məmmədovun örnək həyatı, digər ləyaqətli zabitlərimizin ömür yolu bizi həmişə həyacanlandırıb, ruhlandırıb.

Qüsursuz xidmətləri, qanunçuluğun və hüquq qaydalarının təmin olunmasında çoxillik səmərəli fəaliyyətləri ilə polisin tarixində iz qoyan, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, xidməti vəzifələrinə vicdanla, andlarına sədaqətlə yetişmələrində veteranlarımızın, bu tarix yaşıdlarının rolu əvəzsizdir. Ona görə bayram sevincindən onlara da pay düşür və bu təntənə onların halal haqqıdır.

Aytəkin Nəcəfova,
polis polkovnik-leytenantı

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il iyul ayının 7-də Quba Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyunun 23-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib. Sonra ümummilli lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın dövlət himni səsləndirilib.

Nazir müavini – Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin ilk buraxılışının Qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib.

Qeyd olunub ki, ölkəmizdə aparılan hərbi quruculuq işləri Daxili Qoşunlardan və onun Ali Hərbi Məktəbindən də yan keçməyib. Bu ali təhsil ocağı qısa müddət ərzində bütün zəruri maddi-texniki və tədris bazası ilə təmin edilib, xidmətin müasir standartlara uyğun təşkili məqsədilə tam kompyuterləşdirilmiş auditoriyalar, təlim şəhərcikləri yaradılıb, kursantların intellektual səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən xüsusi fənn kabinələri və xarici dil mərkəzi təşkil olunub.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbrik və xoş arzularını mərasim iştirakçılarına çatdırıb. Bildirilib ki, Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunlar yarandığı gündən şərəfli xidmət yolu keçib, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə fədakarlıqlar göstərib, ölkədə sabitliyin, ictimai təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyevin vaxtilə dediyi "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir" fikrini xatırladan nazir möhtərəm ölkə başçımızın ali diqqət və qayğısının nəticəsi olaraq hazırda Qoşunların peşəkar hərbi quruma çevrildiyini nəzərə çatdırıb.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən cənab R.Usubov bu işdə digər ölkələrin də anoloji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini qeyd edib.

Nazir Ramil Usubov hər zaman Daxili Qoşunların inkişafına qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə peşəkar zabit kadrların hazırlanması məqsədilə 2014-cü ildə Ali Hərbi Məktəbin yaradıldığını, məhz Ali Baş Komandanın xüsusi diqqəti sayəsində onun maddi-texniki bazasının ilbəil gücləndiyini, bütün infrastruktur obyektlərinin tikildiyini vurğulayıb. O, bu gün Ali Hərbi Məktəbin öz təyinatına uyğun olaraq, Qoşunlar üçün yüksək ixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə bir daha təbrik edib,

Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil müəssisəsinin rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, olduqca vacib fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş dörd məzuna - Emil Abdullayev, İlkin Allahverdiyev, Xəyal Cəbrayılov və Cavid Məhərrəmzadəyə fərqlənmə diplomlarını və «leytenant» hərbi rütbələrinin paqonlarını təqdim edib.

Gənc zabit Emil Abdullayev "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib və onlar Məktəbin marşını ifa ediblər.

Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

23 iyun 2018-ci il.

100 İLİN GƏNC POLİSİ

Tariximizdə elə günlər var ki, onun bizə yaşatdığı qürur hissini bəlkə də ötən yüzillərdə yaşamamışıq. Yaratdığımız tarixi bəzən yazıya almağa ərinmişik və bu bizə illər sonra çox baha başa gəlib. Zəif düşmənlərin güclü hiylələrinin qurbanı olub birliyə, hür olmağa gedən yolumuzdan yarımçıq dönmüşük. Dilimizə fars, zehnimizə ərəb damğası vuranları, əsl kimliyimizi bizə unutduranları tanıyanda isə ya gec olub, ya da ki, tarixin o üzündə qalan at üstündəki ruhumuz bizdən üz çevirib. Göylərdən gələn müqəddəsliyimiz "Məndən ötdü"ləri deyib, sevinən qandaşlarımızı qoruya bilməyib, çünki qardaşın dar günündə ona arxa çevirmək həm də Tanrıya üsyan demək idi. Sahib olduğumuz dünyadan qəlpə-qəlpə qopduqca, acizləşdik, kimsəsizləşdik və böyük imperiyalardan geriyə hərəsi bir ovuc torpağa yiyələnmiş küskün qardaşlar qaldı...

Ey cümhuriyyət yaşıdı, illərin yadigarı,
Sinəsi döyüşlərdə səngər olan Polisim.
Vətənin dar günündə harayına yetişən,
Şəhid olan Polisim, əsgər olan Polisim...

İyirminci yüzillikdə ruhumuza günəş kimi doğan o gün tarixin bütün uğursuzluqlarını bizə unutdurdu. Azərbaycan adlı cümhuriyyətin qurulması sanki böyük bir imperiyanın yenidən yaranması demək idi və bu sevinc dalğa-dalğa Türküstan ellərinə, ordan isə bütün dünyaya yayıldı.

Dünyanın sınaqlarla üzbəüz qaldığı o çətin dövrdə dövlət qurmaq bir yana, onu qorumaq üçün hər şeyini, hətta həyatını belə qurban verənlər 100 il sonra xatırlanacaqlarını yaxşı bilirdilər.

Yüz yaşlı cümhuriyyət və 25 yaşlı müstəqil Azərbaycan dövləti. İkisinin də taleyi, yazısı eynidi. İkisini də bu qoca millət qurdu, ikisi də ölüm və ölüm sınağı ilə üzbəüz qaldı. Və sonda ikisi də hürr oldu...

Cümhuriyyət yaşıdı...Bu ifadəni tez-tez eşidirik. İndi nəinki Azərbaycanda, bəlkə də dünyada çox az sayda 100-ü haqlayan var. Amma bu gün cümhuriyyətin yadigarı olan Azərbaycan Polisi var və biz də onun sıralarında addımlayan xoşbəxtlərdənik.

İlk baxışdan qəribə görünsə də bu bir həqiqətdir və "Azərbaycan ordusunu Azərbaycan Polisi formalaşdırdı" fikrini, bu gerçəkliyi danmaq olmaz. Torpaqlarımızın azadlığı uğrunda əlinə silah alıb erməni millətçilərinə qarşı döyüşən oğullara silahdan istifadə qaydalarını, ilk döyüş taktikasını da məhz polisdə can qoyan oğullarımız öyrətdi.

Ön cəbhədə düşmənin, arxa cəbhədə isə cinayətkarların gülləsinə sinəsini sipər edən həmkarlarımızın şücaətləri bəlkə də cild-cild kitablara sığmaz. Onlar öz qanlarıyla Azərbaycan Polisinin döyüş tarixini yazıblar. Torpaqlarımız uğrunda gedən döyüşlərdə 1695 həmkarımız və hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər ağır xəsarət alıb. Göstərdikləri fədakarlığa və şücaətlərə görə 68 nəfərə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Horadizin və ətraf kəndlərin azad edilməsində DİN Daxili Qoşunları və polis, sözün əsl mənasında, tarix yazdı. Bu qələbə cəbhədə döyüşçülər arasında inamı artırdı və polis yerini yenicə formalaşmağa başlayan orduya verib yenidən arxa cəbhədəki mübarizəsini davam etdirdi.

Aparılan islahatlarla daxildən saflaşan, təmizlənən Azərbaycan Polisi və onun ayrılmaz hissəsi olan Daxili Qoşunlar ulu öndərinin, Ali Baş Komandanının inamını həmişə doğruldub, təhlükəsizliyin təminatçılarından biri olub.

1994-cü ildən daxili işlər orqanlarında başlamış dönüş mərhələsi yalnız cinayətkarlığa qarşı effektiv mübarizə və kriminogen durumun tam nəzarətə götürülməsi ilə məhdudlaşmadı, həm də ən vacib sahələrdən biri - şəxsi heyətin mənəvi cəhətdən sağlamlaşdırılması və təmizlənməsi prosesi də vüsət götürdü.

Əldə edilən nailiyyətləri polisin 80 illiyi münasibətilə şəxsi heyətə ünvanladığı təbrikdə dahi öndər belə vurğulamışdı:

"Azərbaycan polisi dövlətçiliyimiz əleyhinə yönəlmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir... Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur".

Əbədiyaşar liderimiz Heydər Əliyev daxili işlər orqanlarının şəxsi heyətinin sosial müdafiəsini heç zaman diqqətdən kənarda qoymamışdır. Hələ hadisələrin ən qaynar dövründə - 1994-cü il aprelin 29-da DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirilən müşavirədə ulu öndər demişdi ki, "Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır".

Ümummilli liderin daxili işlər orqanlarının xidmətlərinə verdiyi yüksək qiymətin məsuliyyətini, eləcə də gələcəyə ünvanlanmış strateji vəzifələr olduğunu aydın dərk edən şəxsi heyətimiz bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı, cənab İlham Əliyevin rəhbərliyi ilə günü-gündən inkişaf edən, dünyada söz sahibinə və böyük dövlətlərin etibarlı tərəfdaşına çevrilən ölkəmizdə əmin-amanlığın, sabitliyin keşiyində ayıq-sayıq dayanmaqla yanaşı, həm də bir vətəndaş kimi bu yüksəlişə öz töhfələrini verirlər. Ölkə rəhbərimizin təbirincə desək, əgər bu gün ölkəmizin iqtisadi potensialının artmasının əsas şərti olan sabitlik və ictimai təhlükəsizlik mövcud olmasaydı, onda hazırkı milli təraqqidən söhbət gedə bilməzdi.

Bu gün cinayətkarlıqla, mübarizənin daha effektli aparılması, konstitusiyaya, qanunçuluğa ciddi əməl edilməsi, dövlətin maraqlarının etibarlı qorunması, asayişin mühafizəsinin peşəkarlıqla həyata keçirilməsi, şəxsi heyətin nizam-intizamının gücləndirilməsi, polis-vətəndaş münasibətlərinin daha yüksək səviyyəyə qaldırılması kimi vəzifələr uğurla həyata keçirilir. Dövlət rəhbərinin təşəbbüsü ilə 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" Dövlət Proqramı müasir dövrün tələbinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Respublikanın daxili işlər orqanlarının fəaliyyət göstəriciləri ildən-ilə yaxşılaşır. Ötən müddətdə bu strukturlar tərəfindən ölkədə asayişin mühafizəsi ağır, habelə geniş ictimai əks-səda doğurmuş cinayətlərin açılması, axtarışda olanların tapılıb-tutulması, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, insan alverinə qarşı mübarizə və digər istiqamətlərdə həyata keçirilən əməliyyat-axtarış və istintaq tədbirləri uğurlu olmuşdur. Sözsüz ki, respublikada hüquq qaydasının təmini işində qazanılan uğurların arxasında müxtəlif çətin şəraitlərdə xidmət aparan, vətəndaşların qanuni mənafelərini cinayətkar qəsdlərdən qoruyan, zəruri anda xidməti borcunu hər şeydən, hətta həyatından belə üstün tutan asayiş keşikçilərinin gərgin səyi və əzmkarlığı dayanır. Azərbaycan Polisi fəaliyyətini yeni dövrün tələblərinə uyğun şəkildə qurur və dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

Bəli, 100 ilin Azərbaycan Polisi artıq dövlətçilik dəyərlərini hər şeydən üstün tutan, ən ali məqsədi Vətənə, xalqa, onun əmin-amanlığına, asayişinə xidmət etmək olan peşəkar hüquq-mühafizə orqanı kimi formalaşıb. Əminik ki, Vətəninə, xalqına və Prezidentinə sadiq olan daxili işlər orqanları özünün zəngin təcrübəsi ilə, həmişə olduğu kimi, bundan sonra da müstəqil dövləti daha da inkişaf etdirmək kimi milli ideyanın - ulu öndər Heydər Əliyevin əbədiyaşar amallarının həyata keçirilməsinə layiqli töhfələr verəcək, yaxın zamanda işğaldan azad olunmuş torpaqlarımızda asayişin və əmin-amanlığın keşiyində ayıq-sayıq dayanacaq.

Son söz kimi demək istəyirik ki, 100 ilin polisinin əsrlərin qovşağında olan, xüsusilə də 24-25 ilinin hərəsi bir əsrə dəyər, bir əsr qədər önəmli və qiymətlidir. Və 100 ilin ürəyimizdə gəzdirdiyimiz oduna, qutsallığına tapınıb növbəti yüzilliyə doğru inamla addımlayırıq.

Bayramımız mübarək!

Hafiz Təmirov,
polis mayoru

YUBİLEYƏ HƏSR OLUNMUŞ YARIŞLAR

Azərbaycan Polisi 100 illik şanlı tarixi ərzində şərəfli yol keçərək dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilib, ölkəmizdə müstəqilliyin və daxili sabitliyin təmin olunmasında mühüm rol oynayıb. Bu dövr ərzində polis cinayətkarlığa qarşı mübarizədə qətiyyətli addımlar atıb, qanunun aliliyinin, insanların təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması kimi çətin vəzifələrin öhdəsindən layiqincə gəlib.

İyunun 23-də DİN İdman Cəmiyyətində yeniyetmə və gənclər arasında keçirilən birinciliklər də möhtəşəm yubileyə dəyərli töhvədir.

Yarışların açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova ölkədə ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dincliyin təmin edilməsində polisin fəaliyyətindən danışaraq bildirib ki, 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə əsası qoyulan milli polis ötən dövr ərzində çətin və şərəfli yol keçmişdir. Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan polisinin formalaşmasına, peşəkarlığının artırılmasına daim böyük diqqət və qayğı göstərmişdir. Dahi rəhbərin hakimiyyətə qayıdışından sonra hüquq-mühafizə orqanlarının işində dönüş yaranmış, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə gücləndirilmişdir.

Qeyd edilib ki, DİN İdman Cəmiyyəti daxili işlər orqanlarının tərkibində yaranmış ilk qurumlardan biri olmaqla ölkəmizin ən qocaman idman təşkilatlarından biri kimi dövlətimizin idman həyatında önəmli rol oynayıb, məşqçilərin, yüksək səviyyəli idmançıların yetişməsində parlaq qələbələr əldə edib.

Olimpiya, dünya və Avropa çempionları Lyudmila Şubina və Namiq Abdullayev ölkəmizin zəngin idman ənənələrindən danışaraq, Azərbaycanda Olimpiya hərəkatının formalaşmasında gənclərə və yeniyetmələrə dövlət qayğısının göstərilməsində ulu öndərimizin və onun siyasi kursunu davam və inkişaf etdirən möhtərəm Prezidentimizin əvəzsiz xidmətlərini minnətdarlıq hissi ilə diqqətə çatdırıblar.

Daha sonra güləşin sərbəst və yunan-Roma növləri, boks, bədii gimnastika və çerliding üzrə açıq birinciliklərə start verilib. Dörd gün davam edən yarışlarda paytaxtın və respublikamızın idman klub və cəmiyyətlərinin yetirmələri qüvvələrini sınayıblar.

Sonda qaliblərə kubok, diplom və medallar təqdim olunub.

Zeyni Hüseynov

İyunun 27-də DİN İdman Cəmiyyətində Azərbaycan Polisinin 100 illiyi ilə əlaqədar güc strukturları arasında cüdo üzrə DİN-in açıq çempionatı keçirilib.

Ətraflı gələn sayımızda.

ƏSRƏ BƏRABƏR POLİS ÖMRÜ

Bu gün Azərbaycan vətəndaşı öz polisini sevir, ona güvənir və inanır. Polis də öz növbəsində, ictimai asayişin qorunması, hər bir vətəndaşın təhlükəsizliyi keşiyində ayıq-sayıq dayanır, xalqımızın bir parçası olduğunu ürəkdən hiss edir, onun sevgisinə, ehtiramına layiq olmağa çalışır.

Daxili işlər orqanları üçün yüksək peşə hazırlığına malik ixtisaslı kadrların hazırlanmasında təhsil müəssisələrimizin əvəzsiz rolu var. Polisin uğurlu fəaliyyətinin təməli həm də düzgün təşkil edilmiş təhsil sistemindən çox asılıdır. Bu gün Polis Akademiyasının təhsil səviyyəsi, maddi-texniki bazası və elmi potensialı müasir tələblərə tam cavab verir. Fəxrlə demək olar ki,

respublikanın ali təhsil müəssisələri arasında DİN-in Polis Akademiyası öz keyfiyyətinə görə xüsusi ilə fərqlənir və ən qabaqcıl tədris ocaqlarından biridir.

Bu gün təkmilləşdirilmiş tədris-metodiki, elmi və maddi-texniki bazaya malik olan Polis Akademiyası nəinki respublikamızın, habelə xarici ölkələrin eyni profilli təhsil müəssisələri içərisində özünəməxsus yer tutur. Hazırda Akademiyada müasir təhsil texnologiyaları əsasında ali təhsilin hər üç səviyyəsi-bakalavriatura, magistratura və doktorantura, əlavə təhsil proqramı üzrə isə ixtisaslaşdırma kadrların yenidən hazırlanması, təkrar ali təhsil üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Polis Akademiyasında elmi-tədqiqat fəaliyyəti sahəsində də uğurlu naliyyətlər əldə olunub. Bu gün Akademiyada iki hüquq elmləri doktoru, bir professor, on səkkiz fəlsəfə doktoru, üç əməkdar müəllim, on bir dosent fəaliyyət göstərir, üç əməkdaş doktorluq dissertasiyası, on iki nəfər isə namizədlik dissertasiyası üzərində çalışır.

Son zamanlar ölkəmizə gələn xarici vətəndaşların sayının artması, həmçinin beynəlxalq səviyyəli kütləvi tədbirlərin keçirilməsi Akademiyada təhsil alan müdavimlərin xidmətə hazır olmasını, xarici dilləri bilməsini tələb edir. Bu məqsədlə bütün tədris kurslarında əlavə müəllimlər cəlb olunmaqla ingilis dilindən fakultativ dərslər keçirilir.

Həmkarlarımızın bilik və bacarıqlarının təkmilləşdirilməsi, peşəkarlıqlarının artırılması ilə yanaşı, onların sağlamlıqları da daim ölkə və DİN rəhbərliyinin diqqət mərkəzindədir. Məhz ötən illər ərzində bu istiqamətdə də mühüm addımlar atılmış, sözün əsl mənasında, böyük bir inkişaf yolu keçmiş DİN-in hospitalı ən müasir tələblərə cavab verən bir şəkildə yenidən qurularaq asayiş keşikçilərinin ixtiyarına verilmişdir.

Ötən müddət ərzində hospitalda tibb xidmətinin müasir səviyyədə təşkili üçün mövcud imkanlardan geniş istifadə olunub, maddi-texniki baza daha da zənginləşib, yeni şöbələr açılıb, beynəlxalq standartlara cavab verən ən müasir texnika və avadanlıqlarla təchiz olunub. Xəstələrin müayinə və müalicəsi üçün hər cür şərait yaradılıb. Hazırda 320 çarpayı fondu olan hospitalda 20 şöbə, 2 mərkəz, 2 bölmə və ayrı-ayrı yardımcı xidmət sahələri fəaliyyət göstərir. Bu gün öz peşə borcunu layiqincə yerinə yetirən həkimlərin arasında 2-si tibb elmləri doktoru, 11-i tibb üzrə fəlsəfə doktoru, 2 doktorant, 5 dissertant, 20-dən artıq ali dərəcəli həkim, 25-ə yaxın ali dərəcəli tibb bacısı vardır. Hospitalın 4 həkimi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar həkim" fəxri adına layiq



görülüb. Əməkdaşların bir qismi ayrı-ayrı Avropa ölkələrində, eləcə də Türkiyədə və Rusiyada təcrübə kursu keçərək öz ixtisaslarını artırıblar.

Daxili İşlər Nazirliyi Tibb İdarəsinin 1 və 2 saylı poliklinikaların yüksək səviyyəli maddi-texniki bazası və peşəkar tibb personalı ilə polis əməkdaşlarının, veteranların, onların ailə üzvlərinin, o cümlədən hər bir vətəndaşın sağlamlığının keşiyində müsəlləh əsgər kimi ayıq-sayıq dayanır. Poliklinikalarımızda çalışan fədakar insanların da məqsədi polisə və onların ailə üzvlərinə yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verəcək şəkildə tibbi xidmətin göstərilməsi və xəstəliklərin vaxtında aşkar edilməsidir. Və deyək ki, Azərbaycan Polisinin 100 yaşınadək belə gənc və sağlam qalmasının bir səbəbi də onlardır-ağ xalatlı xilaskarlarımız...

Aytən Tahirova,
polis leytenantı

100 yaşın mübarək, AZƏRBAYCAN POLİSİ!

Azərbaycan Polisi yarandığı gündən peşə borcuna, mənafeyinə ləyaqətlə xidmət etmiş, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirmişdir.

Müstəqilliyimizin ilk illərində, təəssüflər olsun ki, xalqımız qeyri-sabit ictimai-siyasi vəziyyətdə yaşamaq məcburiyyətində qaldı. Ölkədə naşıların siyasi hakimiyyəti ələ keçirmələri nəticəsində hərc-mərclik yarandı, özbaşınalıq halları dözülməz həddə çatdı. Qanuna zidd sihahlı dəstələr və ayrı-ayrı silahlı şəxslər ölkə daxilində kriminogen durumu gərginləşdirməklə əhalidə qorxu hissini aşırı dərəcədə artırmışdılar. Mövcud şəraitin canlı şahidi olan insanlar dövət orqanlarına inamı tamamilə itirdilər.

Cinayətkarlıqla mübarizə aparmaq, daxili sabitlik yaratmaq, hüquq qaydasını qorumaq bilavasitə vəzifəsi olan daxili işlər orqanları siyasi oyunlara cəlb olunmuşdu. Peşəkar polis işçiləri sıxışdırılaraq işdən uzaqlaşdırılırdılar. Onların əvəzinə sərişdəsiz, polis adına ləkə gətirən, cinayətkarlığa qarşı mübarizə aparmaq qabiliyyəti və təcrübəsi olmayan şəxslər rəhbər vəzifələrə irəli çəkilirdi. Bunun nəticəsi olaraq, dövlətin digər qolları kimi daxili işlər orqanlarının da nüfuzu tamam itmişdi.

1993-cü il iyunda xalqımızın israrlı tələbi ilə Bakıya dəvət olunan ulu öndər Heydər Əliyev ölkəni faciələrdən, qardaş qırğınından qurtardı. Cəmiyyətdə ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa edildi. Cinayətkarlıqla mübarizə günün tələbləri səviyyəsində təşkil olundu və kriminogen durum nəzarətə götürüldü. Dövlətçiliyə təhlükə törətmək niyyətində olan cinayətkar qruplar qanuni şəkildə zərərsizləşdirildilər. İnsan hüquq və azadlıqları beynəlxalq standartlara uyğun olaraq, təmin edildi. Təbii ki, ümummilli liderimizin düzgün kadr seçimi bu məsələdə əsas rol oynadı.

Ümummilli lider 1994-cü il avqustun 9-da imzaladığı «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» fərman mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə ölkədə ictimai-siyasi asayişin qorunmasında, təşkilati-hüquqi bazanın yaradılaraq möhkəmləndirilməsində çox böyük rol oynadı. Məhz ümummilli liderin rəhbərliyi və nəzarəti altında görülən tədbirlərlə əhalidə olan minlərlə qanunsuz saxlanılan odlu silah və sursat yığıldı, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr ləğv edildi. Az vaxt ərzində cinayətkar ünsürlərin və silahlı dəstələrin əl-qolları bağlanaraq zərərsizləşdirildi. Bu isə vətəndaşlarımızın dövlətə, onun hüquq-mühafizə orqanlarına itmiş inamlarının bərpası ilə nəticələndi.

Əldə olunan uğurları yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev polisin 80 illiyi münasibətilə şəxsi heyətə ünvanladığı təbrikdə belə demişdir: «Azərbaycan Polisi dövlətçiliyimiz əleyhinə yönəlmiş cinayətkar qəsdlərin və başqa qeyri- konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir. Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarının və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur."

Daxili işlər orqanlarının 90 illik yubileyi münasibətilə keçirilmiş toplantıda isə Prezident cənab İlham Əliyev demişdir: *«Azərbaycan xalqı Azərbaycan Polisini sevməlidir, ona hörmət etməlidir. Bu gün bu hörmət var və mən istəyirəm ki, daha da çox olsun. Bunu etmək üçün gərək siz yaxşı işləyəsiniz, öz gündəlik fəaliyyətinizdə yaxşı nəticələr göstərəsiniz, cinayətkarlara qarşı daha da amansız mübarizə aparasınız. Mən bu sahədəki fəaliyyətdən razıyam. Demək olar ki, Azərbaycanda uzun illər ərzində nə cinayətkar dəstə problem yarada bilər, nə də ki, başqa qeyri qanuni birləşmələr mövcud deyildir. Arzu edirəm ki, bundan sonra da doğma vətənimizə ləyaqətlə xidmət edəsiniz, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi işində iştirak edəsiniz. Azərbaycanda bu gözəl vəziyyəti daha da möhkəmləndirmək üçün, bu gözəl ab-havanı əbədi etmək üçün əlinizdən gələni edəsiniz. Siz bu vəzifələri ləyaqətlə icra edirsiniz.»*

Respublikada sabitliyin möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə, dövlətçiliyin qorunmasında müstəsna xidmətlər göstərmiş Azərbaycan Polisi həm də Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişdir. Daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyətinin yüzlərlə əməkdaşı və hərbi qulluqçusu müharibədə şəhid olmuşdur.

Müstəqil Azərbaycan dövləti bu gün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının və qurumlarının üzvüdür. Bu isə o deməkdir ki, Azərbaycan hökümətinin icraya yönəlmiş qanunları beynəlxalq standartlara uyğun olmalı və icra orqanları işini o standartlar çərçivəsində qurmalıdır. Mövcud reallıqdan çıxış edərək deyə bilərik ki, bəli, bu gün Azərbaycan Polisinin fəaliyyəti, iş prinsipi beynəlxalq təşkilatların ekspertlərinin tələblərinə tam uyğundur.

Daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının, dünyagörüşünün artırılması, beynəlxalq təcrübədən bəhrələnməsi istiqamətində işlər məqsədyönlü və sistemli şəkildə həyata keçirilir. Əməkdaşlarımız qabaqcıl təcrübənin daha səmərəli tətbiqi məqsədi ilə Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların xətti ilə keçirilən və daxili işlər orqanlarının fəaliyyətinin başlıca istiqamətlərini əhatə edən müxtəlif forum və müşavirələrdə mütəmadi olaraq iştirak edirlər.

DİN rəhbərliyi polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə vətəndaşlardan və QHT- lərdən daxil olan müraciətlərə xüsusi önəm verir və operativ şəkildə reaksiya göstərir. Məhz bu cür həssas yanaşmanın və münasibətin nəticəsində son illərdə vətəndaşlarla kobud rəftar, əsassız gətirmə, saxlama, hüquqlarını pozmaya görə xeyli sayda polis əməkdaşı cəzalandırılmış və daxili işlər orqanlarından xaric edilmişdi. Bir sözlə, daxili işlər orqanlarının tərkibi hər ötən il saflaşmış və bugünki yüksək səviyyəyə çatmışdır.

100 illik yubileyimizdə əminliklə deyə bilərik ki, Azərbaycan Polisi, sözün həqiqi mənasında, asayişin və sabitliyin keşiyində mətanətlə və ləyaqətlə dayanır. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qarşımızda qoyduğu vəzifə və tapşırıqları vicdanla yerinə yetirməyə həmişə hazırıq!

Vüqar Sərdarov,
polis polkovnik-leytenantı

SEVGİ VARSA ...

Uşaq vaxtı az qala hamıdan soruşurlar ki, böyüyəndə hansı peşənin sahibi olacaq. Biri anası kimi həkim, bir babası kimi müəllim, ya da əmisi kimi polis olacağını deyir. İntiqam da böyüyəndə babası kimi polis olmağı arzu edib həmişə. Uşaqlıqdan daxili işlər orqanları əməkdaşlarına sevgi, bir az da həsədlə baxıb. Elə bu arzuların içində illər bir-birini əvəzləyib, onu uzaq-yaxın yollardan keçirib.

İntiqam Eynullayev 1962-ci ildə Gəncə şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Hərbi xidmətdə müsbət xarakterizə olunduğuna görə 1987-ci ildə təhsil almaq üçün Kalininqraddakı Milis Məktəbinə göndərilib. Məktəbi bitirib yenidən Dmitrovqrad şəhərinə qayıdaraq xidmətini davam etdirib.

1990-cı il yanvarın 20-də Moskva televiziyasından verilən acı xəbər orada yaşayan bütün azərbaycanlıları sarsıdıb. Qəflətən Bakı şəhərinə ordu yeridilmiş, yüzlərlə günahsız insan qətlə yetirilmişdi. Həmin gecəni sübhəcən oyaq qalan İntiqam ertəsi gün Vətənin harayına çatmaq üçün geriyə - Bakıya dönməyi qərara alıb. O, SSRİ Daxili İşlər Nazirliyinə raportla müraciət edərək xahiş edib ki, onun iş yerini Azərbaycana dəyişdirsinlər...

Qarabağı qorumaq üçün könüllü müdafiə batalyonu yarananda ona ilk qoşulanlardan biri də İntiqam olub. O, cəbhə bölgəsində vuruşaraq, mühüm döyüş tapşırıqlarını yerinə yetirib. 1991-ci ildə Ağdamın Qaralar kəndində gedən döyüş zamanı bel nahiyyəsindən ağır yaralanıb. Polis əməkdaşları onu meyitlərin arasından çıxarıb huşsuz vəziyyətdə xəstəxanaya gətiriblər. Bir neçə ay müalicə olunduqdan sonra yenidən döyüş bölgəsinə qayıdıb. Çaykənd əməliyyatında iştirak edən zaman xəsarət alıb.

Sonralar Gəncə Şəhər RPİ Nizami Rayon Polis Şöbəsində cinayət axtarışı üzrə əməliyyat müvəkkili vəzifəsində çalışıb. Cəmi 32 yaşı olanda polis baş leytenantı cinayətkar tərəfindən baş nahiyyəsindən güllə yarası alıb. Nəticədə danışıq qabiliyyətini itirib. Sonradan üç dəfə infarkt keçirib. İntiqam Eynullayev I qrup əlilidir. Uzun illər sağlamlığının yenidən bərpa olunacağını və çox sevdiyi xidmətə qayıdacağını ümidlə gözləyib. Amma…

Arzuları çox idi. Amma aldığı bircə güllə onu bu arzularından məhrum etdi.

Danışmağa çətinlik çəksə də övladları ilə fəxr etməyi gözlərindən bəlli olur. Böyük oğlu Şahin də polis əməkdaşıdır. Qızı Lamiyə müəllimdir. Kiçiyi Anar isə Dənizçilik Akademiyasında təhsil alır.

O, hamıya qismət olmayan böyük bir qabiliyyətin sahibidir. Bu, sevə bilməkdir. Həyatda nə edibsə, sevgi ilə edib. Vətənini də, peşəsini də, ailəsini də eyni – böyük məhəbbətlə, təmənnasız sevib. Umarıq ki, həyat da, ömrü də onu bundan sonra daha çox sevəcək.

Bayramın mübarək, polis qardaşım!

R.Əliyeva,
polis leytenantı

YÜKSƏK NƏTİCƏLƏR QAZANDILAR

Ötən həftə Şotlandiyanın Qlazqo şəhərində usta güdoçular arasında Avropa çempionatı keçirilib. Bu yarışda 35 ölkədən minə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb.

Ölkəmizin milli komandası qitə çempionatında 37 idmançı ilə təmsil olunub, 5 qızıl və 9 bürünc medal qazanıb. Milli komandamız iki yaş kateqoriyası üzrə keçirilən komanda yarışlarında bürünc medala layiq görülüb.

Mötəbər yarışda **DİN İdman Cəmiyyətinin yetirməsi, Əlahiddə Çevik Polis Alayının taqım komandiri, polis kapitanı, idman ustası Hikmət Cəbiyev** çəkisi 90 kiloqramadək olan idmançılar arasında final mərhələsinə qədər irəliləyib, bürünc medala sahib olub.

H.Cəbiyev idmanın güdo və cui-çitsu növləri ilə məşğul olur. İki dəfə respublika çempionu adını qazanan polis kapitanı dəfələrlə beynəlxalq yarışlarda, ölkə çempionatlarında, turnirlərdə fərqlənib, yüksək mükafatlar qazanıb.

ƏÇPA-nın daha bir əməkdaşı, polis baş serjantı Azər Fətullayev bu yarışın favoritləri sırasında olub. O, çəkisi 81 kiloqramadək olan idmançılar arasında qarşılaşdığı bütün görüşlərdə rəqiblərini məğlub edərək qızıl medal qazanıb, Avropa çempionu adına sahib olub.

A.Fətullayev güdo üzrə dəfələrlə respublika çempionu, beynəlxalq yarışların qalibidir.

Zeyni Hüseynov,
polis serjantı

Ətraf mühitin də keşiyindədirlər

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi respublikanın şəhər və rayonlarında, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir.

Cari ilin iyun ayı ərzində paytaxtın Sabunçu, Xətai, Səbail, Binəqədi, Xəzər, Abşeron rayonlarında və Sumqayıt şəhəri ərazisində keçirilən tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 266.3-cü (məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması) və 211-ci (sanitariya-gigiyena və epidemiya əleyhinə rejimlərinin pozulması) maddələrinin tələblərini pozmuş 36 şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib. Onlara tətbiq olunan cərimələrin məbləği 5.550 manat təşkil edib.

Ümumilikdə cari ilin müvafiq dövrü ərzində şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 206 fiziki və hüquqi şəxs inzibati məsuliyyətə cəlb edilib, onlara ümumilikdə 13.550 manat cərimə tətbiq olunub.

Bu istiqamətlərdə tədbirlər davam etdirilir.

N.Cavadov,
polis kapitanı

RESPUBLİKA BAŞ PROKURORLUĞUNUN, DAXİLİ İŞLƏR, FÖVQƏLADƏ HALLAR, EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİKLƏRİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

2018-ci il iyun ayının 2-də Göyçay rayonu ərazisində baş vermiş güclü leysan zamanı Bakı-Şamaxı-Yevlax yolunun 217-ci kilometrində Göyçay çayı üzərində yerləşən körpü qum-çınqıl yataqlarında aparılan qanunsuz istismar işləri səbəbindən uçaraq yararsız vəziyyətə düşmüş, nəticədə dövlətə 3 milyon manatdan artıq ziyan dəymişdir.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ayrı-ayrı şəhər və rayonlarda fəaliyyət göstərən 250-yə yaxın qum-çınqıl karxanasından 81-də monitorinq aparılmışdır. Müəyyən edilmişdir ki, son dövrlər bəzi dövlət orqanları və sahibkarlıq subyektləri tərəfindən yer təkinin qorunması, xüsusən çay yataqlarının istifadəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş standartlar, normativlər, qaydalar və lisenziyalaşdırma şərtləri kobud surətdə pozulduğundan ətraf mühitə, infrastruktur obyektlərə, su təchizatı şəbəkələrinə, hidrotexniki qurğulara və sahil bərkitmə bəndlərinə ciddi təhlükə yaranmış, çay məcraları kəskin eroziyaya məruz qalmışdır.

Aşkarlanmış qanunsuzluqlarla bağlı toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 255-ci (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanılmış, eləcə də hüquq mühafizə orqanlarının təcrübəli əməkdaşlarından və aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət istintaq-əməliyyat qrupları yaradılaraq təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

İstintaq araşdırmaları göstərmişdir ki, karxanalardan 14-ü lisenziya və digər müvafiq sənədlər olmadan qanunsuz şəkildə qum-çınqıl istehsalı ilə məşğul olmuş, daha 41 karxana yataqların istismarının dayandırılması barədə Nazirlər Kabinetinin qərarına zidd olaraq fəaliyyətini davam etdirmiş və nəticədə dövlətə 16 milyon manatdan çox ziyan vurulmuşdur.

Konkret olaraq "Göyçay" qum-çınqıl yatağında istismar işləri aparan karxanalar ətraf mühitə 4 milyon manatdan çox, Mingəçevir şəhərində və Yevlax rayonunda yerləşən 16 karxana 700 min manatdan artıq, Şamaxı, İmişli, Şəmkir, Qazax, Quba, Qusar, Tərtər və Bərdə rayonları ərazisində yerləşən 56 karxana isə 8 milyon manatdan çox ziyan vurmuşdur.

Göstərilən hüquqazidd əməllərə yol verdiklərinə görə "ATF" MMC-nin təsisçisi və faktiki rəhbəri Fəxrəddin Muradov, "Azpod" MMC-nin qum-çınqıl zavodunun direktoru Nəcməddin Əliyev, "Elnicat" MMC-nin direktoru Bəhruz Sadayev, "Titanik-5" MMC-nin təsisçisi və faktiki rəhbəri Şahin Məmmədov, fiziki şəxslər Natiq Zakirov, Nazim Qasımov, Nəriman Yəhyayev Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir. "Azəraqrartikinti" ASC-nin Göyçay qum-çınqıl filialının istehsalat rəisi Allahverdi Allahverdiyev və "Gülövşə" MMC-nin təsisçisi Mahir Allahverdiyev barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilmişdir. "Attinak" MMC, "Bayburt Qrup" Anonim Şirkəti, habelə bir sıra digər hüquqi və fiziki şəxslər barəsində araşdırmalar davam etdirilir.

Hazırda istintaqı aparılan cinayət işləri üzrə bütün təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilir.

21 iyun 2018-ci il.

DÜNYAYA PƏNCƏRƏ

Dünya üzrə şəbəkə oyununa çevrilən, yüzlərlə insanın ölümünə səbəb olan «Mavi balina"nın yaradıcılarından biri Nikita Nearonov həbs edilib. Rusiyada yaşayan Nearonovun 22 yaşı olduğu bildirilir.

*****

Rusiyanın Daxili İşlər Nazirliyi bildirir ki, Sovet düşərgələrində saxlanmış minlərlə məhbusa aid qeydiyyat kartları rəqəmsallaşdırılır. Bundan əvvəl tarixçilər bu sənədlərin məhv edilə biləcəyindən narahatlıq ifadə etmişdilər.

Nazirlik rəqəmsallaşma barədə bəyanatı iyunun 13-də yayıb, ancaq bundan bir həftə əvvəl rusiyalı tarixçilərdən biri sənədlərin məhv edildiyinə dair iddia irəli sürüb. Tarixçilər deyirlər ki, qeydiyyat kartlarında onilliklər ərzində Sibir və başqa yerlərdəki düşərgələrdə saxlanmış insanlar barədə mühüm məlumatlar var.

*****

Almaniyanın 280 federal polisi və gömrükçüsü Şlezviq-Qolşteyndə, Alt Saksoniyada və Şimali Reyn-Vestfaliidə 11 mənzildə və işgüzar yerdə axtarış aparıb. Tədbirlər Almaniyaya qeyri-leqal miqrasiyanın təşkili ilə məşğul olan mütəşəkkil cinayətkar qruplaşmanın fəaliyyətinin araşdırılması çərçivəsində həyata keçirilib. Üç regionda aparılan axtarışların gedişatında polis əməkdaşları və gömrükçülər müxtəlif sənədləri, pulu, saxta şəxsiyyət vəsiqələrini, kompyuterləri, mobil telefonları və silahları maddi sübut kimi götürüblər.

Bildirilir ki, cinayətkar qruplaşma əsasən Moldovadan qanunsuz miqrasiyanın təşkili ilə məşğul olub. Cinayətkarlar miqrantları Avropa Birliyinə girişə icazə, ölkədə olma və iş icazəsi kimi saxtalaşdırılmış sənədlərlə təchiz ediblər.

*****

Banqladeşdə narkotiklərlə mübarizə çərçivəsində təhlükəsizlik dəstələrinin keçirdiyi əməliyyatlarda toqquşmalar zamanı 102 narkotik qaçaqmalçısı öldürülüb. 12 min qaçaqmalçının sağ ələ keçirilərək nəzarətə alındığı bildirilir.

Banqladeşin daxili işlər naziri Əsədüzzaman Xan əməliyyatların ölkədə narkotik ticarətinin tamamilə ələ alınacağı vaxta kimi davam edəcəyini açıqlayıb. İnsan Haqları Təşkilatları əməliyyat zamanı öldürülənləri mühakiməsiz infaz kimi qiymətləndirərək, doğru olmadığı barəsində açqlama vermişdi. Banqladeş rəsmiləri isə narkotiklə mübarizədə sıfır tolerantlıq siyasəti yeridəcəklərini bildirib.

C.Natiq

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNƏ BİLAVASİTƏ TABE OLAN ŞƏKİ VƏ İMİŞLİ "ASAN XİDMƏT" MƏRKƏZLƏRİ ÜZRƏ REGİONAL QRUPLARDA VAKANT OLAN 36 (OTUZ ALTI) KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Kiçik rəis heyəti vəzifələrinə: Respublikanın Şəki "ASAN xidmət" mərkəzində (18), İmişli "ASAN xidmət" mərkəzində (18), ümumilikdə 36 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət orta, xüsusi-orta və ali təhsil müəssisələrini bitirmiş, Şəki, Oğuz, Qax, İmişli, Saatlı və Beyləqan rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsili olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci ilin iyun ayının 27-dən iyul ayının 27-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri, R.Behbudov küçəsi, 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

-şəxsiyyət vəsiqəsi;

-təhsil haqqında sənəd (orta təhsil haqqında attestat və ya diplom);

-əmək kitabçası (olanlar üçün).

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41 şəhər

(012) 590-64-31 (312) daxili

İyunun 20-dən 26-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 733 cinayət qeydə alınmış, onların 154-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 85 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 184 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 18 nəfər, borclu şəxs qismində axtarışda olan 69 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 34 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 19 nəfər ölmüş, 51 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 67 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 205 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Nizami RMİ-nin rəisi Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi Nüsrət Şirinov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Təşkilat-İnspeksiya İdarəsinin rəhbərliyi və şəxsi heyəti şöbə rəisi Müşfiq Axundova atası
SALMAN müəllimin
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Sabirabad RPŞ-nin rəisi Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin rəisi Yusif Mehdiyev və şəxsi heyəti Müşfiq Axundova atası
SALMAN müəllimin
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Müşfiq Axundova atası
SALMAN müəllimin
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondu icraçı direktoru Sadiq Gözəlov Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Elşən Camalova atası
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Əli Mərdanov və şəxsi heyəti Namiq Camalova əzizi
YAVƏR CAMALOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN!

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:30